**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** **Kış 2021/ 8-4**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.205

# Amerika ədəbiyyatinda detektiv janrin əsas ideoloji aspektləri

**İlhamə Məmmədova***
**ORCID: 0000-0003-2787-5037**

**Xülasə**

Məqalədə müasir amerika ədəbiyyatında detektiv janrın bəzi ideoloji aspektlərindən bəhs olunur; detektiv janrda populyarlıq qazanmış amerika yazıçıları Raymond Çandler, Samuel Deşil Hammet, Ed Makbeyn (əsl adı Salvatore Albert Lombino) və Con Qrişamın timsalında əsas ideoloji və ədəbi-bədii meyarlar təhlil olunur. Bizim qənaətimizə görə, amerikan detektivinin önəmli xüsusiyyətlərindən biri klassik ənənəyə uyğun olan strukturun qorunub saxlanması ilə yanaşı, süjet zəncirlərinin çoxşaxəli və çoxplanlı olması, bu zəncirvari quruluşda ideoloji meyarların məharətlə ifadə edilməsidir. Tədqiqata cəlb etdiyimiz müəlliflərin timsalında amerikan detektiv romanlarında cinayət tərkibli müəmmalı hadisələrdə müxtəlif tipli təzadlı xarakterlər və obrazlar təsvir edilir və yazıçılar obrazların hərəkətləri, davranışları və dili ilə bütövlükdə cəmiyyətin simasını açıb göstərir, dünyaya mesaj verirlər. Bu baxımdan müasir Amerika detektiv romanlarının daha geniş aspektlərdən tipoloji təhlilinə ehtiyac vardır.

**Açar sözlər:** Amerika, detektiv, janr, Çandler, Hammet, Makbeyn, Grişam, ideoloji, roman

**Gönderme Tarihi: 06/09/2021** **Kabul Tarihi:20/10/2021**

* *Filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Devlet Universitetinin müəllimi, Naxçıvan-Azərbaycan ilhame85@bk.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
Məmmədova, İlhamə. ‘‘ Amerika ədəbiyyatinda detektiv janrin əsas ideoloji aspektləri.’’ *Akademik Tarih ve Düşünce Dergisi*, 8-4, 2021, ss.2121-2130.

# The Main ideological aspects of the detective genre in American literature

**Ilhama Mammadova***
**ORCID: 0000-0003-2787-5037**

**Abstract**

The article deals with some ideological aspects of the detective genre in modern American literature; it analyzes the main ideological and literar-artistic criteria in the image of American writers Raymond Chandler, Samuel Deshil Hammett, Ed McBain (real name Salvatore Albert Lombino), and John Grisham, who gained popularity in the detective genre. According to our conclusion, one of the significant features of the American detective is the preservation of the structure corresponding to the classical tradition, as well as the versatility and diversity of plot chains, the skillful expression of ideological criteria in this chain structure. In the example of the authors involved , in American detective novels various types of contrasting characters and images are depicted in mysterious events with criminal content, and writers, through their actions, behaviors and language of images, reveal the image of society as a whole and send a message to the world. In this regard, there is a need for a typological analysis of modern American detective novels from a broader perspective.

**Keywords:** America, detective, genre, Chandler, Hammett, Mcbain, Grisham, ideological, novel

**Received Date: 06/09/2021** **Accepted Date: 20/10/2021**

* *Phd in philology, associate professo, Lecturer of Nakhchivan State University, Nakhchivan-Azerbaijan, ilhame85@bk.ru*

***You can refer to this article as follows:***
Məmmədova, İlhamə. '' Amerika ədəbiyyatinda detektiv janrin əsas ideoloji aspektləri.'' *Academic Journal of History and Idea*, 8-4, 2021, ss.2121-2130.

# Базовые идеологические аспекты детективного жанра в американской литературе

**Ильхама Мамедова***
**ORKID: 0000-0003-2787-5037**

**Резюме**

В статье рассказывается о некоторых идеологических аспектах детективного жанра в современной американской литературе; анализируются основные идеологические и литературно - художественные критерии в образе американских писателей Рэймонда Чандлера, Сэмюэля Дешиля Хаммета, Эда Макбейна (настоящее имя Сальваторе Альберт Ломбино) и Джона Гришама, завоевавших популярность в детективном жанре. По нашему заключению, одной из важных особенностей американского детектива является сохранение структуры, соответствующей классической традиции, а также многогранность и многоплановость сюжетных цепочек, умелое выражение идеологических критериев в этой цепной структуре. На примере авторов, привлеченных нами к исследованию, в американских детективных романах описываются различные типы контрастных персонажей и образов в загадочных событиях криминального содержания, и писатели своими действиями, поведением и языком раскрывают и передают миру образ общества в целом. В связи с этим возникает необходимость в типологическом анализе современных американских детективных романов с более широких сторон.

**Ключевые слова:** Америка, детектив, жанр, Чендлер, Хаммет, Макбейн, Гришам, идеологический, роман

**Получено: 06/09/2021** **Принято: 20/10/2021**

* *Кандидат филологических наук, доцент, преподаватель Нахчыванского государственног университета, Нахчыван-Азербайджан, ilhame85@bk.ru*

***Ссылка на статью:***
Məmmədova, İlhamə.''Amerika ədəbiyyatinda detektiv janrin əsas ideoloji aspektləri.'' *академическая история и мысль*, 8-4, 2021, ss.2121-2130.

**Giriş**

İyirminci əsrdə dünya ədəbiyyatı tarixində müxtəlif janrlarla yanaşı detektiv janr da xüsusi yer tutur. Öz mənbəyini jurnalistikanın məhkəmə oçerkləri janrından götürən detektiv, ədəbiyyatın qeyri-bədii növündən belletristikaya və kütləvi ədəbiyyata çevrildi. Bu qlobal prosesdə Amerika detektiv romanları mühüm rol oynadı. Amerika ədəbiyyatında detektiv bütün janr sərhədlərini aşaraq epik janrlardan birinə çevrildi, publisistika ilə bədii ədəbiyyat arasında özünə möhkəm yer elədi. Beləliklə, süjet əsasında yaranan detektiv bir janr kimi radio və televiziya tamaşalarının, teatr səhnələrinin, kino, videofilm və sənədli filmlərin senari mətnlərinin süjetli bazasını təşkil elədi. Bundan başqa, Amerika detektivi ədəbiyyatın digər janrları ilə - elmi fantastika, triller, müxtəlif cinayət romanları və s. əməlli-başlı rəqabətə girdi. İyirminci yüzillikdə detektiv strukturu demək olar ki, əksər tanınmış Amerika yazıçılarının, daha çox intellektual müəlliflərin romanlarında əhəmiyyətli elementlər kimi özünü göstərdi. Uilyam Folkner, Xuan Borxes və Vladimir Nabokov kimi ciddi müəlliflər də bu janrın elementlərindən yararlandılar. Bizim qənaətimizə görə, məhz detektiv ədəbiyyatı XX əsr Amerika mədəniyyətinin xarakterini qismən də olsa müəyyən edir. Ən önəmlisi isə budur ki, son yüz ildə dünya ədəbiyyatı tarixində müxtəlif janr və üslubların meydana gəlməsi və bu sırada xüsusi olaraq detektiv janrın kütləvi hal alması bədii ədəbiyyatda oxu funksiyasına da nəzərəçarpacaq dərəcədə təsir edib. Detektiv ədəbiyyat artıq qlobal mənada dünya oxucusunun demək olar ki, bir nömrəli hobbisi olmuşdur.

**1-Detektiv ədəbiyyat: Amerika reallıqları**

Daha çox publisistik üsluba yaxın olan detektiv kütləvi ədəbiyyatın populyar fenomeninə çevrilmişdir. Bu xüsusda X1X əsr klassik ingilis ədəbiyyatının nümayəndələri ilə yanaşı, XX əsrin Amerika ədəbiyyatında meydana gələn məşhur imzaların da rolunu qeyd etməliyik. Amerikalılar detektiv janrda məxsusi forma və üslubları və sətiraltı ideoloji “təlimatları” ilə daha çox populyarlıq qazanmışlar. Bizim fikrimizcə, amerikan detektivinin önəmli xüsusiyyətlərindən biri klassik ənənəyə uyğun olan strukturun qorunub saxlanması ilə yanaşı, süjet zəncirlərinin çoxşaxəli və çoxplanlı olması, bu zəncirvari quruluşda ideoloji meyarların məharətlə ifadə edilməsindir. Əlbəttə, ənənəvi olaraq detektiv əsərlərin əksəriyyətində müəmmalı hadisənin real və həqiqi şəraiti, səbəbləri oxucuya tam çılpaqlığı ilə

bildirilmir; oxucu elə müəllifin özüylə bərabər müəmmalı hadisə və yaxud cinayətin açılması prosesində iştirak edir.

Bizim araşdırmalarımıza görə, amerikan detektiv romanlarında cinayət tərkibli müəmmalı hadisələrdə əsasən üç tip xarakterik obrazlar təsvir edilir: birinci tip obrazlara ənənəyə sadiq, fərdi motivləri güclü inkişaf etmiş və davranış qaydalarına əməl edən təşəbbüskar və mübarizəyə hazır xarakterlər aiddir. İkinci tip obrazlar xaricdən və kənar qüvvələr tərəfindən idarə olunan bürokratik dövlət aparatının, hərb və polis maşınının, biznes və pulun köləsi olan və hər cür yeniliyi və cinayəti dərhal qəbul edən xarakterlərdir. Nəhayət, üçüncü tipə aid olanlar cəmiyyət içində azmış, özlərini itirmiş, mübarizə gücündən məhrum olan bədbin xarakterlərdir ki, onlar da yeri gələndə ağlasığmaz cinayətlər törədir, imkan düşən kimi əqidəsini, mənəviyyatını satanlardır. Bu mənada obrazların tipologiyasına həm sosioloji, həm də ideoloji aspektdən yanaşmaq olar. Bizim qənaətimizə görə, müasir Amerika yazıçıları, detektiv roman ustaları Raymond Çandler, Samuel Deşil Hammet, Ed MakBeyn (əsl adı Salvatore Albert Lombino - Salvatore Albert Lombino) və Con Qrişamın nümunə üçün təhlil etdiyimiz əsərlərindəki mövzu və məqsədlər məhz ideoloji aspektdən maraq doğurur.[1] Tipik nümunələri təhlil etməmişdən öncə detektiv janrın bəzi xüsusiyyətlərinə aydınlıq gətirək. Ümumiyyətlə, ensiklopedik lüğətlərdə detektiv sözünün latın dilindən götürüldüyü və mənasının "açmaq, müəyyən etmək" olduğu bildirilir. İngilis dilində "detect" "açmaq, aşkar etmək" deməkdir, "detektiv" isə xəfiyyə mənasında başa düşülür[2]. Sonuncu söz əsasən ədəbiyyatda və kinematoqrafiyada janr kimi işlədilir, əsərlərdə müəmmalı hadisənin təhqiqat prosesində iştirak edir; detektivin məqsədi hadisənin baş verdiyi şəraiti öyrənmək və müəmmanı açmaqdır. Adətən belə hadisələr cinayət xarakteri daşıyır və detektiv də onun təhqiqatını təsvir edir, təqsirkarları üzə çıxardır. Bu halda əsərdəki konflikt ədalətlə qanunsuzluğun toqquşması üzərində qurulur və nəticədə ədalət zəfər çalır. Ənənəvi və klassik yol və süjet xətti sadəcə bu strukturdan ibarətdir. Lakin bir çox hallarda belə müəmmalı hadisələrdə finalda cinayət tərkibi olmur. Müasir Amerika detektiv janrının əsas xüsusiyyətlərindən biri də budur. Raymond Çandlerin (*"Dərin yuxu"* - *The Big Sleep, " Göldə qadın"-The Lady in the Lake, " Balaca bacı"- The Little Sister* və s.) və Deşil Hammetin romanlarında (*"Qırmızı məhsul"- Red Harvest,"Lənətlənmiş Deynlər"- The Dain Curse, "Malta şahini" - The Maltese Falcon, "Şüşə açar" - The Glass Key"* və s. ) qanun, pul və polis əsas obraz və atributlar hesab olunur. Bu simvolik detalları müasir Azərbaycan

---

[1] Pisateli SSHA, *Kratkiye tvorcheskiye biografii*. M.: Raduga, 1990, s.443.
[2]A. Adamov, *Moy lyubimiy janr- detektiv,* Sovetskiy pisatel, Moskva 1980, s. 8.

ədəbiyyatında detektiv janr ustası, yazıçı Çingiz Abdullayevin əsərlərində də *(“Müqəddəs olmaq istəyi”, “Alçağın üslubu”, “Məhşər ayağında”, “Monte-Mario təpəsində ölüm”, “Qatil üçün Qran-Pri”, “Qisasın ölçüsü”, “Centlmen sövdələşməsi”, “Mavi mələklər”, “İnsan ovu”, “Bakı bulvarı”, “Prezident ovu”, “Əclaflarınqanunu”* və s.) müşahidə etmək olar. Bu mənada tarixi-ədəbi fenomen kimi müasir amerikan detektivinin təsir və əhatə dairəsinin geniş vüsət alması təbii görünür.Beləliklə, müasir Amerika detektiv ədəbiyyatı bir çox hallarda XX əsr Amerika mədəniyyətinin xarakterik xüsusiyyətlərinin başqa ölkələrdə də qəbul edilməsində aparıcı rol oynamışdır. Detektiv janrın məhz Amerika modeli- ədalət və məhkəmə anlayışlarının, əxlaq və qanun ölçülərinin ədəbi-bədii formada qavranılması və öyrənilməsi dünya mədəniyyəti müstəvisində aparıcı rol oynayır. Amerika detektivinin populyar olması səbəblərindən biri də bu amildir; detektiv romanlarda çevik ideoloji istiqamətlər, burjua demokratiyası dəyərlərinin fərdi yazıçı üslubu ilə ifadəsi, habelə onların qlobalizasiyanın təsiri altında dünyaya yayılması amilləri bir daha sübut edir ki, amerikalılar bu janrda da üstündürlər. Misal üçün, Raymon Çandler realist yazıçıdır, lakin “kəskin detektiv” janrın banisi kimi tanınmışdır. Çandler hələ XX əsrin əvvəllərində jurnalist kimi fəaliyyətə “*Daily Express”*və “*Western Gazette”* redaksiyalarında başlamışdı və görünür, jurnalistika sahəsində uğur qazana bilməmişdi. Buna görə də ucuz ədəbi jurnallar üçün detektiv hekayələr yazmağa başladı və tezliklə gördü ki, belə hekayələrə tələb var. O, artıq 30-cu illərdə detektiv romanlar müəllifi kimi tanınmışdı. Onun məşhur *“Göldə qadın”* romanı çapdan çıxandan sonra 1943-cü ildə yazıçını Hollivuda dəvət edirlər və öz senarisi ilə eyni adlı romanı filmə çəkirlər. Yazıçının demək olar ki, bütün romanlarının əsas qəhrəmanı Filipdir (Philip Marlowe)[3]; o kaliforniyalı detektivdir. Filip abırsız adamdır, həyatda uğursuzluğa düçar olub; o, əxlaqsızlığa və korrupsiyaya düçar olmuş Amerika cəmiyyətini pessimistcəsinə izləyir və yeri gələndə özü də cinayət işlədir, zorakılıq edir. Lakin bu keyfiyyətlərinə baxmayaraq, romanda o, müsbət obraz kimi təqdim edilir. Filip hətta cəmiyyətdə baş verən hadisələrə, cinayətlərə, əxlaqsızlığa humanist meyarlarla baxır. Bu da amerikan detektiv janrının paradokslarındandır. Burada əlbəttə, “ağıllı” oxucular yazıçının bədii məqsədindən başqa ideoloji məqsədlərini də görürlər. İstər Çandler, istər Hammet, istərsə də MakBeynin əsərlərində bir qayda olaraq cinayətkar-qəhrəmanların təsvirində arqotizmlərdən, yəni arqodan ədəbi dilə keçmiş söz və birləşmələrdən istifadə edirlər; bu təkcə yuxarıda adları qeyd olunan yazıçılara aid deyil, görünür, XX əsrin əvvəllərindən ta 60-70-ci illər Amerika ədəbiyyatı nümayəndələrinədək bütün müəlliflərin yaradıcılığında belə

[3] E. Beekman- R. Chandler, ‘’An American Genre’’, *The Massachusetts Review,* Vol. XIV, № 1. Usa, 1973. s. 161.

ədəbi leksikadan istifadə etmək dəbdə olub. Biz Teodor Drayzer, Kolduel, Sinkler, Cek London, Mark Tven, Ayzek Əzimov kimi Amerika yazıçılarının əsərlərində də buna rast gəlmişik. Adətən əsər müəllifi bu leksikadan istifadə etməklə həm öz emosiya və duyğularını, həm də qəhrəmanların hərəkət və davranışlarını dəyərləndirmək üçün istifadə edirdilər. Ed MakBeynin "*Balta"* romanından götürdüyümüz bir cümlədə qəhrəman qeyri-standart ədəbi leksikadan çox istifadə edir: *"...who then could possibly imagine that DannyGimp was an informer, a stoolie, a rat, or even God forbid a snitch?"*[4] Maraqlıdır ki, bu cümlədə arqotizm-sinonimlər mənanı daha ekspressiv edir, daha kəskin çalar qatır ona. Misal üçün, cümlədəki *"stoolie"* sözü "xəbərçi, satqın" deməkdir, *"snitch"* də eyni məna verir. Bütün bunlar obrazın dilidir, rəmzi xarakter daşıyır və onu göstərir ki, obrazın xarakteri də özü kimidir, neqativdir. Hesab edirik ki, bu da yazıçının sətiraltı ideoloji "təlimatı"dır. Şərqdə məşhur bir məsəl var: "Danış, görüm kimsən" və yaxud "İnsan dilinin altında gizlənib". Məsələyə ideoloji aspektdən yanaşsaq, əslində burada yazıçı dünyaya mesaj verir: azad cəmiyyətdə yaşayan Amerika insanı təzadlıdır, ziddiyyətlidir, dəyərlərə qarşı həm loyal, həm də laqeyddir, o nəyin bahasına olursa-olsun yaxşı yaşamaq istəyir!

D. Hammetin "Qırmızı məhsul" romanında da detektiv polis rəisidir. Polis rəisinin nitqi, danışıq tərzi, digər personajlarla dialoqu tipik amerikan polisinin xarakterik cizgilərini ortaya qoyur və belə deməyə əsas verir ki, burada müəllifin məqsədi təkcə cinayətkar-qəhrəmanın, yaxud cinayətdə şübhəli bilinən adamın xarakterini açmır, eləcə də qətlin kimin tərəfindən törədildiyini müəyyən etmək üçün bu prosesə qoşulan adamın- detektivin öz xarakterini də açmış olur. "*A soiled dove, as the fellow says, a de luxe hustler, a big-league gold-digger".* Burada *soiled dove (a high-flying harlot və hustler (a pickpocket who relies on jostling and hustling his victims )*[5]ondan ötrü işlədilir ki, oxucu təcrübəli polisin peşəkarlığına diqqət yetirsin; polis-detektiv kriminal aləmə bələddir, yəni elə ilk baxışdan o, cinayətkarların bütün cizgilərini və cəhətlərini təsvir etməyə qadirdir. Lakin bununla belə bu prosesdə iştirak edən xarakterlər də müxtəlif tiplidir, bəziləri ənənəyə sadiqdirlər, fərdi motivləri güclü inkişaf edib, davranış qaydalarına əməl edirlər, bəziləri kənar qüvvələr tərəfindən idarə olunurlar, bürokratik dövlət aparatının, polis maşınının, biznes və pulun köləsidir, bəziləri də əxlaqsız və korrupsiyalı cəmiyyətdə özlərini itirmiş, azğınlaşmış, özləri də çirkaba bulaşmışlar. Bu tiplərin hərəsi bir cür dəyər və əxlaq yiyəsidir, lakin onları birləşdirən bir dəyər də var: pul!

[4] Ed Mc Bain, *Learning To Kill,* Harvest Books, America 2006, s. 50.
[5] D. Hammet, *İz vospominaniy chastnoqo detektiva, Sbornik romanov,* Ripol Klassik Yayım Evi, Moskva 2000, s.736. (s.5).

Hətta humanistliyini bir balaca qoruyub saxlamış detektiv də belə pula sitayiş edir[6]. Con Qrişamı da "klassik detektiv" yazıçısı adlandırmaq olar. Onun detektiv romanları da çox böyük tirajla satılır və oxunur. Onun əsərlərinə filmlər çəkilir. Qrişam "*Öldürmək zamanı"*[7] romanını bir neçə ilə yazıb, ilk dəifə 1988-ci ildə çap olunub. Qrişamı o biri yazıçılardan fərqləndirən cəhət onun "məhkəmə detektivi" və ya "hüquq trilleri" janrında yazmasıdır. Məhz bu forma ona çox böyük populyarlıq gətirmişdir. Onun *"Firma", "Müştəri", "Qızıl yağış", "Küçə vəkili*" və c. əsərləri milyonlarla tirajla çıxmış və müəllifə həm şöhrət, həm də var-dövlət qazandırıb. Əsərləri dünyanın 25 dilinə tərcümə olunub. Səbəb çox sadədir: o, Amerika detektiv janrının daha maraqlı növlərindən – hüquq trillerindən istifadə etdi. Bu janr növü müttəhimin məhkəmə tərəfindən təqib olunmasını təsvir edir, dinamikliyi, gərgin nəqletmə manerasıyla seçilir. Burada janra uyğun olaraq məzmun, forma və funksiya əlamətləri mövcuddur; onun formal əlamətləri dinamikliyi və gərginliyidir. Funksional əlaməti əsərin əyləncəli xarakteridir, "avantüra" ədəbiyyatına bənzəyir, məzmunu isə çox sadədir, kütləvi oxucu üçün başa düşülən və anlaşıqlı dildə yazılıb. Bundan başqa, Qrişamın əsərlərində elə situasiyalar var ki, onlar romanın ölçülərinə uyğun gəlmir, misal üçün, məhkəmə araşdırması, və yaxud məhkəmə təqibi məhkəmə zalında yox, kənarda aparılır. Bütün bunlarla yanaşı, müəllifin obrazları uydurma deyil, onlar müasir Amerika cəmiyyətinin nümayəndələridir və xaraktercə, milliyyətcə, əqidəcə eyni olmasalar da, eyni bir dövlətin bayrağı altında yaşayır, işləyir, mübarizə aparır, ölür və öldürürlər. Əslində bu insanların həyatı elə başdan-başa "detektiv" deməkdir, "ölüm-dirim savaşı" deməkdir və nəticə budur ki, həyatda olduğu kimi detektiv romanlarda da onlar qarışıq, təzadlı, paradoksal ideoloji meyarlarla yaşayırlar.

---

[6] D.Porter, *The Pursuit of Crime: Art and Ideology in Detective Fiction, New Haven,* Yale Univ. Press, London 1981. s. 12.

[7] J. Grisham, "Boxers, Briefs and Books", *The New York Times*; accessed, November 2, 2010.

**Nəticə**

Beləliklə, müasir Amerikanın detektiv janrının dünyanın kütləvi ədəbiyyatına çevrilməsi fenomenal bir hadisədir; burada həm Amerika yazıçılarının fərdi üslublarının, həm çevik ədəbi və ideoloji baxışlarının, həm də çoxnövlü və yeni janr əlamətlərinin əhəmiyyətli dərəcədə rolu olub. Bizim qənaətimizə görə, detektivin XX əsrdə bədii-publisistik janr kimi daha bir mühüm rolu həqiqət və ədalət kateqoriyalarının spesifik formada oxucuya çatdırılmasında olmuşdur. Janrın qismən də olsa ideoloji aspektdən, habelə mövzu üzrə təhlili göstərir ki, Amerika yazıçıları ədalət və həqiqət ideyalarını spesifik üsullarla açmaqda birləşirlər, bu sahədə müəlliflər arasında oxşar cəhətlər çoxdur və onların əsərlərinin kütləvi populyarlığının əsas səbələrindən biri həm də bu amildir. Detektiv romanların sənətkarlıq məziyyətlərinə gəlincə, təhlilə cəlb etdiyimiz müəlliflərin demək olar ki, fərqlənirlər, əksər romanların məzmun, forma və funksiya əlamətləri janrın tələblərinə cavab versə də, müxtəlif dərəcədə dinamikliyi, kütləvi oxucu üçün anlaşıqlı olmasıyla, sadəliyi və gərginliyi ilə seçilirlər.

## İstifadə olunmuş ədəbiyyat

ADAMOV, A., *Moy lyubimiy janr- detektiv,* Sovetskiy pisatel, Moskva 1980.

BEEKMAN, E., CHANDLER, R., ‘’An American Genre’’, *The Massachusetts Review,* Vol. XIV, № 1. Usa, 1973. s. 161.

GRISHAM, J., "Boxers, Briefs and Books", *The New York Times*; accessed, November 2, 2010.

HAMMET, D., *İz vospominaniy chastnoqo detektiva, Sbornik romanov*, Ripol Klassik Yayım Evi, Moskva 2000.

MC BAIN Ed, *Learning To Kill*, Harvest Books, America 2006.

*Pisateli SSHA, Kratkiye tvorcheskiye biografii*, M., Raduga, 1990.

PORTER, D., *The Pursuit of Crime: Art and Ideology in Detective Fiction, New Haven,* Yale Univ. Press, London 1981.